**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________ dos. Zaur Məmmədov
" 12 " fevral 2026-cı il

# Fənn sillabusu

**İxtisasın şifri və adı:**7001001- *Məktəbəqədər yaş dövründə təhsil və inkişaf;* 7001001- *Məktəbəhazırlığın təşkili*
**Fakültə**: Filologiya və ibtidai təhsil (magistratura)
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
**I Fənn haqqında məlumat**:
**Fənnin adı**: Məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafı
**Fənn proqramı:** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30.09.2011-ci il tarixli 1602 saylı əmri ilə təsdiq edilmişdir
**Kodu:** MIF-B01.06
**Tədris ili:** I (2025-2026) Semestr: II
**Tədris yükü:** cəmi: 120 saat. Auditoriya saatı-45 (30 saat mühazirə, 15 seminar)
**Tədris forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6
**II Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, dərəcəsi və elmi adı:** Ph.D. dos. Verdiyeva Ləman Əşrəf qızı
**Kafedranın ünvanı**: Lənkəran ş. Ə. Məmmədov küç.19. LDU-nun 2 saylı binası
**E-mail ünvanı:** leman.verdiyeva@mail.ru
**Məsləhət günləri və saatı:** 1 ci gün saat 14.00-16.00
**III Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**
**Əsas:**
1. Vəliyev M.Ə, Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı-2013
2. Qədirov Ə. Ə. Yaş psixologiyası. Bakı-2002.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003
4. Çələbiyev. N.Z. Uşaq psixologiyası. Bakı, 2005
5. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya.II nəşr., Bakı, 2002
6. Psixologiya. Prof.S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı,2007
7. Əliyev R.İ. Psixologiya. Bakı, 2003
8. Əliyev R.İ. Psixologiya tarixi. Bakı, 2006

**Əlavə:**

9. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, 2006
10. Əlizadə Ə.Ə İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər. Esselər, etüdlər. Bakı, 2005
11. Həmzəyev M.Ə, Əmiraslanova S. F. Ünsiyyətin psixologiyası. Bakı, 2007
12. Zeynalabdinova Ə.X. Məktəbdə psixoloji xidmətin praktik məsələləri. Bakı, 2003

**IV.Prerekvizitlər:**Fənnin tədrisi üçün öncədən hər hansı fənnin tədrisinə zərurət yoxdur.
**V. Korekvizitlər:**Fənnin tədrisi ilə eyni vaxtda digər fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**
Məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafı tədris kursu "Pedaqogika, psixologiya və incəsənət" kafedrası nəzdində pedaqoji yönümlü ixtisasların tədris planı çərçivəsində işlənmişdir. Tədris planına uyğun olaraq bu kursu magistratura səviyyəsinin " Məktəbəqədər yaş dövründə təhsil və inkişaf; Məktəbəhazırlığın təşkili ixtisasının

tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun I tədrisi tədris ilinin II semestrində (30 s. mühazirə, 15s. seminar) nəzərdə tutulur.

Kursun əsas məzmununu ilk növbədə məktəbəqədər yaş dövründə inkişaf və yaş psixologiyasının mövzusu, bu elmin qarşısında duran vəzifələr və tədqiqat metodlarının şərhi təşkil edir. Kursun tədrisində eyni zamanda yeni doğulan uşaqların, başqa sözlə çağa və körpələrin, erkən yaşlıların, həmçinin məktəbəqədər yaşlıların, kiçik məktəblilərin, yeniyetmə və böyük məktəblilərin, habelə gənclərin, yetkin yaşlı və qocaların psixoloji xüsusiyyətlərinin öyrənilməsi nəzərdə tutulur. İnkişaf və yaş psixologiyasının fənninin tədrisi vasitəsilə tələbələr müxtəlif yaş dövrlərində hər yaşa keçid prosesində psixi inkişafın, psixi funksiyaların, o cümlədən idrak proseslərinin təzahür xüsusiyyətlərini, dinamik inkişafını, habelə yaşdan asılı olaraq hər yaşın fərdi cəhətlərinin xüsusiyyətlərini öyrənməli olacaqlar. Tələbələr eyni zamanda bu fənnin tədrisi zamanı psixi inkişaf problemləri ilə, xüsusilə u.aqlarda inkişaf problemlərin xarici ölkə psixoloqlarının, o cümlədən Azərbaycan psixoloqlarının fikirlərinə müraciət edəcəklər.

**VII Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır

**VIII Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Yəni tələbələrin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ( 50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |

| | | | |
|---|---|---|---|
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X Təqvim-mövzu planı:**Auditoriya saatı - 45 (30 saat mühazirə)

| N | Keçiriləcək mövzuların məzmunu | Müh | Tarix |
|---|---|---|---|
| | | | |
| 1 | **Mövzu**. İnkişaf və yaş psixologiyasının mövzusu, vəzifələri və metodları<br>***Plan:***<br>1. İnkişaf və yaş psixologiyası müxtəlif yaş dövrlərində psixi inkişafın faktlarını və qanunauyğunluqlarını öyrənən elm kimi<br>2. İnkişaf və yaş psixologiyasının başqa elmlərlə əlaqəsi<br>3. İnkişaf və yaş psixologiyasının əsas bölmələri<br>4. İnkişaf və yaş psixologiyasının tədqiqat metodları<br>***Mənbə:*** (1; 2; 3, 4) | 2 | |
| 2 | **Mövzu.** İnkişaf və yaş psixologiyası əsas tədqiqat problemləri. Psixi inkişafın zəmini və şərtləri<br>***Plan:***<br>1. «Tədqiqat metodu» anlayışı<br>2. Uşaq psixologiyasının başlıca tədqiqat metodları<br>3. Uşaq psixologiyasında müşahidə və eksperiment metodu<br>4. Uşaq psixologiyasında tədbiq olunan tədqiqat metodları və onların təsnifatı:<br>5. Kliniki söhbətlər<br>• «Testlər» metodu<br>• Riyazi- statistik təhlil metodu<br>• Müşahidə metodu<br>***Mənbə:*** ( 1, 2; 3; 4; 8) | 2 | |
| 3 | **Mövzu.** Uşaqlarda psixi inkişaf problemi<br>***Plan:***<br>1. İnkişafın psixoloji mahiyyəti<br>2. Psixi inkişaf və fəaliyyət<br>3. Psixi inkişaf və ünsiyyət<br>4. Psixi inkişaf və təlim<br>***Mənbə:*** (1; 2; 3, 4, 6) | 2 | |
| 4 | **Mövzu.** Psixi inkişafın yaş dövrləri<br>***Plan***:<br>1. «Yaş» anlayışının təsnifatları<br>2. Postnatal yaş dövrü<br>3. D.B.Elkonin uşağın inkişafın mərhələləri<br>4. Yaş keçid mərhələlərinin qanunauyğunluqları<br>5. E.Eriksonun təsnifatı<br>6. Uşaqlıq dövrünün yaş böhranları<br>7. Uşaqlıq dövrünün ayrı-ayrı mərhələlərində aparıcı fəaliyyət növünü<br>***Mənbə:*** (1; 2; 3,4, 6) | 2 | |
| | **Mövzu.** İlk uşaqlıq dövründə şəxsiyyətin inkişafı | 2 | |

| | | | |
|---|---|---|---|
| 5 | ***Plan:***<br>1.Uşaq şəxsiyyətinin təşəkkülündə təqlidetmənin rolu<br>2.Uşaqlarda özünüdərketmə və «mən obrazı»<br>3.Bir və üç yaşların böhranlarının uşağın rəftar və davranışına təsiri<br>4.Erkən uşaqlıq dövründə iradənin formalaşması<br>5.Erkən uşaqlıq dövründə uşaqlarda hisslərin formalaşması<br>***Mənbə:*** ( 1; 2; 3, 4, 6) | | |
| 6 | **Mövzu**. Məktəbəqədər dövrdə uşağın inkişafının ümumi səciyyəsi<br>***Plan:***<br>1. Məktəbəqədər yaş dövrünün üstün cəhətləri<br>2. Məktəbəqədər yaşlı uşağın idrak fəallığın<br>3. J.Piaje, A.N.Leontyev və L.S.Vıqotskiyə görə uşağın psixi inkişafı<br>4. Məktəbəqədər yaşlı uşağın aparıcı fəaliyyət forması:oyun.<br>***Mənbə:*** ( 1; 2; 3; 4 ) | 2 | |
| 7 | **Movzu.** Məktəbəqədər dövrdə uşaq fəaliyyətinin psixoloji məzmunu<br>***Plan:***<br>1. Məktəbəqədər yaşlı uşaqların həyatına fəaliyyətin rolu<br>2. Oyun məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət növü kimi<br>3. Oyun uşaqların psixi inkişafında təsiri<br>4. Məktəbəqədər yaşda uşaq fəaliyyətinin məzmunu<br>5. Rollu-süjetli oyunların strukturu<br>6. Uşağın psixi inkişafında oyuncaqların əhəmiyyəti<br>7. Məktəbəqədər yaşda oyun növlərinin inkişaf dinamikası<br>8. Fəaliyyətin məhsuldar növləri; təlim və əmək<br>***Mənbə:*** ( 1; 2; 3; 4) | 2 | |
| 8 | **Mövzu**. Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin inkişafı<br>***Plan:***<br>1. Məktəbəqədər yaşlı uşaqlarda xarakterin ilk əlamətləri<br>2. Uşaq şəxsiyyətinin formalaşması<br>3. Uşağın mənimsədiyi davranış normaları<br>4 «Motivlərin qarşılıqlı tabeliyi» uşağın davranışında<br>6. Uşağın şəxsiyyətinin formalaşmasında təqlidin rolu nədən ibarətdir?<br>8. Uşaq şəxsiyyətinin iradi və əxlaqi keyfiyyətləri<br>***Mənbə:***( 1, 2, 3, 4, 6) | 2 | |
| 9 | **Mövzu.** Məktəbəqədər yaşlı uşaqlarda idrak prosesləri<br>**Plan:**<br>1. Məktəbəqədər yaşlı uşaqlarda hisslərin inkişafı<br>2. Məktəbəqədər yaşlı uşaqlarda iradənin inkişafı.<br>3. Məktəbəqədər yaşda nitqin inkişafı<br>***Mənbə: ( 1, 2, 3, 4, 6)*** | 2 | |
| 10 | **Mövzu.** Məktəbəqədər yaşda sensor inkişafın xüsusiyyətləri<br>***Plan:***<br>1. Məktəbəqədər yaşda Sensor inkişaf<br>2. «Sensor mədəniyyət» və «Sensor etalon» anlayışları<br>3. Bağça yaşı dövründə sensor inkişafın xüsusiyyətləri<br>4. Uşaqlarda forma, rəng, kəmiyyət etalonlarının, miqdar və zaman münasibətlərinin formalaşmasında sensor tərbiyənin rolu<br>**Mənbə:**( 1, 2, 3, 4, 6) | 2 | |
| | **Mövzu.** Məktəbəqədər yaşda təfəkkürün inkişafı<br>***Plan:***<br>1. Əyani- əməli təfəkkür forması ilə əyani- obrazlı təfəkkür arasındakı fərq | 2 | |

| | | | |
|---|---|---|---|
| 11 | 2. Uşaq təfəkkürünün «sinkretizm» xüsusiyyəti<br>3. Məktəbəqədər yaşlı uşaqlarda sözlü-mücərrəd təfəkkür<br>4. Məktəbəqədər yaş dövründə əqli qabiliyyətlərinin inkişafı<br>5. Uşaqlarda təfəkkürün məntiqi formaları<br>6. Təfəkkürün inkişafı ilə uşağın nitqi arasındakı əlaqə<br>7. Uşaqlarda intellektual qabiliyyətlərin diaqnostikası<br>***Mənbə:*** ( 1; 2; 3; 4, 6) | | |
| 12 | **Mövzu.** Məktəbəqədər yaşlı uşaqlarda diqqətin inkişafı<br>***Plan:***<br>1. Məktəbəqədər yaşlı uşaqlarda diqqətin formalaşması<br>2. Məktəbəqədər yaşda diqqətin formalarının inkişaf dinamikası<br>3. Uşaqlarda diqqətin xaraketerik cəhətləri<br>4. İxtiyari diqqətin formalaşmasında idrak maraqlarının rolu<br>5. Uşaqlarda ixtiyari diqqətin formalaşmasında oyunun və məşğələlərin rolunu<br>***Mənbə:*** (1; 2; 3; 4, 6 ) | 2 | |
| 13 | **Mövzu.** Məktəbəqədər yaşda təxəyyülün inkişafı<br>***Plan:***<br>1. Uşaq təxəyülünün xüsusiyyətləri<br>2. Uşaqlarda ilkin təxəyyül surətlərinin yaranmasında təqlidin rolu<br>3. Məktəbəqədər yaşlının təxəyyülünün xarakterik cəhətləri<br>4. Bərpaedici təxəyyül surətlərinin formalaşması<br>5. Təxəyyüldə idraki və emosional əlamətlərin əks olunması<br>6. Affektiv uşaq təxəyyülünün mahiyyətini<br>***Mənbə:*** ( 1; 2; 3; 4, 6 ) | 2 | |
| 14 | **Mövzu.** Uşaqların məktəb təliminə psixoloji hazırlığı<br>***Plan:***<br>1. Uşaqların məktəb təliminə funksional hazırlığı<br>2. Uşaqların «məktəb yetkinliyi»nin meyarları<br>3. Altı yaşlı uşaqların məktəbə hazırlığını müəyyən etmək üçün istifadə olunan testlər Kern-Yirosek testi<br>4. Uşaqların məktəb təliminə psixoloji hazırlığı<br>**Mənbə:**( 1, 2, 3, 4) | 2 | |
| 15 | **Mövzu.** Məktəblinin psixoloji xüsusiyyətləri. Kiçik məktəb yaşı dövründə psixi inkişaf<br>***Plan***:<br>1. Kiçik məktəb yaşı dövründə təlim aparıcı fəaliyyət növü kimi<br>2. Kiçik yaşlı məktəblinin anatomik-fiziki inkişafı<br>3. Birinci sinif şagirdlərinin təlim prosesində qarşılaşdıqları çətinliklər tədqiqat problemləri. Psixi inkişafın zəmini və şərtləri<br>4. Təlim fəaliyyətinin əsas komponentləri<br>5. Mənimsəmənin psixoloji komponentləri<br>6. Kiçik yaşlı məktəblilərin təfəkkürünün xüsusiyyətlərini<br>7. Qavrayışın xüsusiyyətləri<br>8. Kiçik məktəb yaşında diqqətin və hafizənin hansı xüsusiyyətləri<br>9. Məktəb təlimi zamanı meydana çıxan başlıca çətinliklər<br>***Mənbə:*** ( 1; 2; 3, 5, 6 ) | 2 | |
| | **Cəmi:** | **30s** | |
| | **seminar** | | |
| 1 | İnkişaf və yaş psixologiyasının mövzusu, vəzifələri və metodları. Tədqiqat problemləri. Psixi inkişafın zəmini və şərtləri | **2** | |
| 2 | Uşağın psixi inkişafının yaş dövrləri | **2** | |
| 3 | Məktəbəqədər dövrdə uşağın inkişafının ümumi səciyyəsi | **2** | |
| 4 | Məktəbəqədər dövrdə uşaq fəaliyyətinin psixoloji məzmunu | **2** | |
| 5 | Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin inkişafı | **2** | |

| | | | |
|---|---|---|---|
| 6 | Məktəbəqədər yaşda senso, təfəkkür, təxəyyül və diqqət inkişafın xüsusiyyətləri | 2 | |
| 7 | Uşaqların məktəb təliminə psixoloji hazırlığı | 2 | |
| 8 | Məktəblinin psixoloji xüsusiyyətləri. Kiçik məktəb yaşı dövründə psixi inkişaf | 1 | |
| | **Cəmi** | **15s.** | |

**XI Fənn üzrə tələblər, tapşırıqlar:**

Tələbə aşağıdakıları bilməli və bacarmalıdır: insan psixikasının imkanları haqqında müvafiq bilikləri; uşaq şəxsiyyətinin inkişaf xüsusiyyətlərinə dair bilikləri; ayrı-ayrı yaş dövrlərinin psixoloji xüsusiyyətlərinə dair bilikləri; özünüqiymətləndirmənin düzgün formalaşdırılmasını;

- Hər bir fərdin özünəməxsus və unikal maraqlarının, bacarıqlarının və xarici görünüşlərinin olması ilə yanaşı onların oxşar cəhətlərinin də olanmasını öyrənmək
- İnkişaf mərhələlərinə məxsus sosial-emosional, koqnitiv, fiziki xüsusiyyətlərin inkişafını izah etmək
- İnkişaf prosesi zamanı genetika və ətraf mühitin rolu və əhəmiyyətini təhlil etmək
- Psixi inkişafın hərəkətverici qüvvələri, şəraiti və qanunauyğunluqlarını müəyyən edib davranışın izah olunması
- Müxtəlif yaş qruplarını tədqiq etmək məqsədiləmüvafiq psixoloji tədqiqat üsullarından istifadə etmək
- Bu sahədə mövcud tədqiqatları, onların metodologiiyasına əsaslanaraq tənqidi təhlil etmək

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktiki tapşırıqlar;
- təqdimat və müzakirə;
- debat;
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlimin nəticələri:**

**FTN 1.** İnkişaf və yaş psixologiyasının mövzusu, vəzifələri, inkişaf tarixi, psixi inkişaf haqqında nəzəriyyələr, ayrı-ayrı yaş dövrlərində psixi inkişafın xüsusiyyətləri, tədqiqatın meodoloji prinsipləri, tədqiqat metodları və metodikalar barədə mənimsədiyi bilikləri şərh edir.

**FTN 2.** Psixi inkişafın yaş dövrləri, psixi inkişafın amilləri, onların qanunauyğunluqları, hərəkətverici qüvvələri, uşaq, yeniyetmə və erkən gənclik yaş dövründə şəxsiyyətin fəaliyyət və ünsiyyət prosesində formalaşması kimi məsələləri mənimsəyir.

**FTN 3.** Məktəbəqədər yaş dövrünün inkişaf xüsusiyyətlərindən, eləcə də ayrı-ayrı yaş mərhələlərində baş verən psixi prosesləri, psixi vəziyyətləri və xassələri öyrənmək metodları haqqında anlayışlardan istifadə etmək imkanı əldə edir.

**FTN 4.** Fəaliyyət və ünsiyyət prosesində idrak imkanlarının, fərdi-pixoloji xüsusiyyətlərin, psixoloji halların təzahürünü müəyyən etməyə nail olur.

**FTN 5.** Təlim fəaliyyətinə keçidlə bağlı uşağın həyatında baş verən dəyşikliklər, aparıcı fəaliyyət kimi təlim fəaliyyətinin inkişafetdirici və tərbiyəedici funksyalarının uşağın həyatında nə kimi rol oynadığını müəyyən edir.

**FTN 6.** Kiçik məktəb yaşı dövründə inkişafda baş verən özünəməxsus problemləri, onların həlli yollarını müqayisə edir, bu sahədə nəzəri və praktik bilikləri əldə edir, temperament tiplərini, xarakter əlamətlərini, qabiliyyətlərini müqayisə edir, rəftar və davranışlarında baş verən dəyşiklikləri müəyyən edir.

**XIV. Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi:**

**XV. Fənn üzrə kollokvium sualları:**

**I kollokvium sualları:**

1. Uşaq psixologiyası nəyi öyrənir və onun mövzusunu nə təşkil edir?
2. Uşaqlıq yaşı dövrü həyatın digər mərhələlərindən nə ilə fərqlənir?
3. Uşağın psixi inkişafını hansı amillər şərtləndirir?

4. Uşağın psixi inkişafının hərəkətverici qüvvələri nədən ibarətdir?
5. Psixi inkişafın «yaxın» və «aktual» zonası anlayışlarının elmi mahiyyətini izah edin
6. «Tədqiqat metodu» anlayışı nəyi əks etdirir. Uşaq psixologiyasının başlıca tədqiqat metodları hansılardır
7. Uşaq psixologiyasında tədbiq olunan tədqiqat metodları başlıca olaraq neçə qrupa ayrılır? Onların təsnifatını verin.
8. «Kliniki söhbətlər» metodunun mahiyyətini izah edin.«Testlər» metodunun hansı variantları vardır?
9. Riyazi- statistik təhlil metodunun mahiyyəti nədən ibarətdir. Müşahidə metodunun tətbiqinə verilən əsas tələblər hansılardır?
10. «Fəaliyyət» anlayışı nəyi əks etdirir, onun mənbəyini nə təşkil edir?

**II kollokvium sualları:**

1. «Fəaliyyət» və «aparıcı fəaliyyət» anlayışlarının psixoloji təhlilini verin.
2. Fəaliyyətin psixoloji strukturuna nələr daxildir? Məktəbəqədər yaş dövründə uşağın başlıca və yardımçı fəaliyyət növləri hansı
3. Fəaliyyət anlayışı ilə «ünsiyyət» anlayışının qarşılıqlı münasibətini izah edin.
4. Ünsiyyətin psixoloji strukturuna nələr daxildir? Ünsiyyətin kommunikativ, perseptiv və interaktiv funksiyalarının psixoloji mahiyyətini göstərin.
5. İnkişafın aktual və yaxın inkişaf zonası nəyi əks etdirir?
6. «İnkişafetdirici təlim» konsepsiyasının mahiyyətini izah edin
7. «Yaş» anlayışının hansı təsnifatları mövcuddur? Onların təhlilini verin.
8. D.B.Elkonin uşağın inkişafını hansı mərhələlərə ayırmışdır?
9. Bir yaş mərhələsindən digərinə keçid hansı qanunauyğunluq əsasında baş verir?
10. Uşaqlarda özünüdərketmə və «mən obrazı» nə vaxt təşəkkül tapır?

**XVI. İmtahan sualları:**

1. Uşaq psixologiyası nəyi öyrənir və onun mövzusunu nə təşkil edir?
2. Uşaqlıq yaşı dövrü həyatın digər mərhələlərindən nə ilə fərqlənir?
3. Uşağın psixi inkişafını hansı amillər şərtləndirir?
4. Uşağın psixi inkişafının hərəkətverici qüvvələri nədən ibarətdir?
5. Psixi inkişafın «yaxın» və «aktual» zonası anlayışlarının elmi mahiyyətini izah edin
6. «Tədqiqat metodu» anlayışı nəyi əks etdirir. Uşaq psixologiyasının başlıca tədqiqat metodları hansılardır
7. Uşaq psixologiyasında tədbiq olunan tədqiqat metodları başlıca olaraq neçə qrupa ayrılır? Onların təsnifatını verin.
8. «Kliniki söhbətlər» metodunun mahiyyətini izah edin.«Testlər» metodunun hansı variantları vardır?
9. Riyazi- statistik təhlil metodunun mahiyyəti nədən ibarətdir. Müşahidə metodunun tətbiqinə verilən əsas tələblər hansılardır?
10. «Fəaliyyət» anlayışı nəyi əks etdirir, onun mənbəyini nə təşkil edir?
11. Bioloji və sosial məzmunlu təlabatların əsas fərqi nədədir?
12. «Fəaliyyət» və «aparıcı fəaliyyət» anlayışlarının psixoloji təhlilini verin.
13. Fəaliyyətin psixoloji strukturuna nələr daxildir? Məktəbəqədər yaş dövründə uşağın başlıca və yardımçı fəaliyyət növləri hansı
14. Fəaliyyət anlayışı ilə «ünsiyyət» anlayışının qarşılıqlı münasibətini izah edin.
15. Ünsiyyətin psixoloji strukturuna nələr daxildir? Ünsiyyətin kommunikativ, perseptiv və interaktiv funksiyalarının psixoloji mahiyyətini göstərin.
16. İnkişafın aktual və yaxın inkişaf zonası nəyi əks etdirir?
17. «İnkişafetdirici təlim» konsepsiyasının mahiyyətini izah edin
18. «Yaş» anlayışının hansı təsnifatları mövcuddur? Onların təhlilini verin.
19. D.B.Elkonin uşağın inkişafını hansı mərhələlərə ayırmışdır?
20. Bir yaş mərhələsindən digərinə keçid hansı qanunauyğunluq əsasında baş verir?
21. Uşaqlarda özünüdərketmə və «mən obrazı» nə vaxt təşəkkül tapır?
22. Bir və üç yaşların böhranları uşağın rəftar və davranışında hansı təzahürlər yaradır?

23. J.Piajenin «realizm» adlandırdığı hadisənin mahiyyətini izah edin.
24. Uşağın şəxsiyyətinin formalaşmasında təqlidin rolu nədən ibarətdir?
25. Uşaq şəxsiyyətinin iradi və əxlaqi keyfiyyətləri
26. Məktəbəqədər yaşlı uşaqlarda hisslərin və iradənin inkişafı.
27. Məktəbəqədər yaşda nitqin inkişafı
28. Məktəbəqədər yaşda Sensor inkişaf
29. «Sensor mədəniyyət» və «Sensor etalon» anlayışlar. Bağça yaşı dövründə sensor inkişafın xüsusiyyətləri
30. Uşaqlarda forma, rəng, kəmiyyət etalonlarının, miqdar və zaman münasibətlərinin formalaşmasında sensor tərbiyənin rolu
31. Əyani- əməli təfəkkür forması ilə əyani- obrazlı təfəkkür arasındakı fərq
32. Uşaq təfəkkürünün «sinkretizm» xüsusiyyəti
33. Məktəbəqədər yaşlı uşaqlarda sözlü-mücərrəd təfəkkür
34. Məktəbəqədər yaş dövründə əqli qabiliyyətlərinin inkişafı
35. Uşaqlarda təfəkkürün məntiqi formaları
36. Təfəkkürün inkişafı ilə uşağın nitqi arasındakı əlaqə
37. Uşaqlarda intellektual qabiliyyətlərin diaqnostikası
38. Məktəbəqədər yaşlı uşaqlarda diqqətin formalaşması
39. Məktəbəqədər yaşda diqqətin formalarının inkişaf dinamikas. Uşaqlarda diqqətin xaraketerik cəhətləri
40. Uşaq təxəyülünün xüsusiyyətləri. Uşaqlarda ilkin təxəyyül surətlərinin yaranmasında təqlidin rolu
41. Məktəbəqədər yaşlının təxəyyülünün xarakterik cəhətləri. Bərpaedici təxəyyül surətlərinin formalaşması
42. Təxəyyüldə idraki və emosional əlamətlərin əks olunması
43. Altı yaşlı uşaqların məktəbə hazırlığını müəyyən etmək üçün istifadə olunan testlər Kern-Yirosek testi
44. Uşaqların məktəb təliminə psixoloji hazırlığı. Kiçik məktəb yaşı dövründə təlim aparıcı fəaliyyət növü kimi
45. Kiçik yaşlı məktəblinin anatomik-fiziki inkişafı
46. Birinci sinif şagirdlərinin təlim prosesində qarşılaşdıqları çətinliklər tədqiqat problemləri. Psixi inkişafın zəmini və şərtləri
47. Təlim fəaliyyətinin ənimsəmənin psixoloji komponentləri
48. Kiçik yaşlı məktəblilərin təfəkkürünün və qavrayışın xüsusiyyətləri
49. Kiçik məktəb yaşında diqqətin və hafizənin hansı xüsusiyyətləri
50. Məktəb təlimi zamanı meydana çıxan başlıca çətinliklər hansılardır? İzah edin

***"Məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafı" fənninin sillabusu 7001001- Məktəbəqədər yaş dövründə təhsil və inkişaf; Məktəbəhazırlığın təşkili ixtisasının ( magistratura) təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Pedaqogika, psixologiya və incəsənət kafedrasının 13 fevral 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol №06).***

Fənn müəllimi: dos. L.Ə.Verdiyeva

Kafedra müdiri: dos. A.X.Əliyev